UOT 159.9

***Gülər Akif qızı Məmmədova***
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# HƏRBİÇİ AİLƏSİNİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Гюляр Акиф гызы Мамедова***
*диссертант по программе доктора философии*
*Азербайджанский Государственный Педагогический Университет*

# ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ СЕМЬИ ВОЕННОСЛУЖАЩЕГО

***Gular Akif Mammadova***
*doctorial student in the program of doctor of philosophy*
*Azerbaijan State Pedagogicial Univercity*

# PSYCHOLOGİCAL CHARACTERİSTİCS OF MİLİTARY FAMİLİES

**Xülasə.** Məqalədə hərbiçi ailələrinin psixoloji durumu milli dəyərlər aspektindən tədqiqata cəlb edilmişdir. Son dövrlər hərbiçilərlə bağlı psixoloji tədqiqatlar daha intensiv xarakter almışdır. Bu baxımdan məqalə aktual bir mövzuya həsr edilib. Müəllif burada çoxsaylı anket sorğulardan istifadə edərək belə bir nəticəyə gəlmişdir ki, hərbiçi ailəsində mövcud olan psixoloji mühit digər peşə sahiblərindəkindən çox fərqlidir.
***Açar sözlər***: *ordu, ailə, tərbiyə, övlad, hərbi*

**Резюме.** В последнее время исследования психологических особенностей военнослужащих стали проводится все более интенсивно. В связи с этим статья посвящена достаточно актуальной теме. В статье рассматривается психологическое состояние семей военнослужащих с точки зрения национальных ценностей. Используя многочисленные анкетные опросы, автор пришел к выводу о том, что психологическая среда в семье военнослужащих сильно отличается от таковой в других профессиях.
***Ключевые слова:*** *армия, семья, воспитание, ребенок, военный*

**Summary.** Recently, psychological research about military workers has expanded significantly. Therefore, the article is dedicated to this trending topic. The psychological state of military families are involved in this article in terms of national aspects. Using several questionnaries , author concludes that pschological situation in military family is more distinct than the families of other occupations.
***Key words:*** *Army, family, upbringing, child, military .*

Hər bir dövlətin var olması, müstəqilliyini qoruyub saxlaması, ölkə vətəndaşlarının təhlükəsizliyini təmin etməsi üçün ordu ən vacib amil sayılır. Ordusu zəif olan bir dövlətin nəinki inkişafı, hətta mövcudluğu da sual altındadır. Ordu, onun hərbi qüdrəti bir dövlətin gücünün, imkanlarının əsas göstəricisi hesab oluna bilər. Ordunun bir dövlət üçün nə qədər vacib olduğunu 30 ilə yaxın Ermənistanla müharibə şəraitində olan hər bir Azərbaycan vətəndaşı daha yaxşı anlayır. İctimai fəaliyyət forması olan ordu əsas iki komponentdən ibarətdir: onun hərbi texnikası və silah-sursat ehtiyatları; ordudakı əsas funksiyaları həyata keçirən hərbi qulluqçular, onların mənəvi, psixoloji durumu və döyüş hazırlığı.

Əgər ordu öz-özlüyündə bir dövlət təsisatıdırsa, onun əsas kadr ehtiyatı peşəkar hərbiçilərdən ibarətdir. Adətən hərbiçi sözü işlədildikdə əynində hərbi forma olan sağlam cüssəli kişilər göz önünə gəlir. Lakin bu, yalnız gözlə görünəndir. Belə ki, hərbiçi həm də bir çox peşə sahiblərindən fərqli olaraq özünəməxsus mənəvi-psixoloji dəyərləri olan ağır bir peşə sahibidir. Peşəkar hərbiçilər yetkinlik yaşlarından hərbi

məktəblərdə, daha sonra Ali Hərbi Akademiyada təhsil alırlar. Bu təhsil ocaqlarında onlara peşəkar hərbiçi kimi yetişmələri üçün lazımi biliklərlə yanaşı çox ciddi psixoloji hazırlıqlar da aşılanır. Şərəfli hərbiçi peşəsinə qədəm qoyan gənc zabit və gizirlər illər ərzində peşəkarlıqlarını artırmaqla bərabər, hərbiçi psixologiyasının daşıyıcısına da çevrilirlər. Heç də təsadüfi deyil ki, hərbiçilər haqqında formalaşmış stereotiplərə görə onlar sərt baxışlı, az gülümsəyən, çox ciddi və amiranə səs tonu ilə danışan insanlardır. Hərbiçilər hər cür çətin, ekstremal həyat şəraitində illərlə yaşamağı bacaran, həyatlarını düşünmədən Vətən üçün qurban verməyə hazır olan, özlərinə və ətrafdakılara qarşı tələbkar olan şərəfli peşə sahibləridirlər.

Belə bir ifadə var ki, hərbiçi peşə deyil, həyat tərzidir. Bu fikirdən çıxış edərək deyə bilərik ki, hərbiçi ailələri də bir sıra fərqli özəlliklərə malikdir. Bu baxımdan, hərbiçilərin və onların ailələrinin psixoloji xüsusiyyətlərinin öyrənilməsi psixologiya elmində xüsusi yer tutur. Bu səbəbdən də psixologiyanın bir qolu olaraq Hərbiçi psixologiyası istiqaməti yaradılmışdır. "*Həyat üçün təhlükəli şəraitdə uzun müddət qalmaq, güclü emosiogen təsir, yüksək fiziki və psixi gərginlik, psixosomatik tükənmə ciddi psixobioloji dəyişikliklərə gətirib çıxarır. Bu dəyişikliklər xüsusi patogenetik mexanizmlərin işə düşməsi ilə, kütləvi özünəməxsus qeyri-adi axınlar şəklində, sülh dövrünə xas olmayan psixi fəaliyyətin disfunksional vəziyyəti ilə nəticələnir" (4, s. 18).*

Yuxarıda qeyd etdiyimiz kimi bu peşə sahəsinin özünəməxsus çətinlikləri var və bu çətinliklər, buradan doğan problemlər hərbiçi ailələrindəki psixoloji mühitə təsirsiz ötüşmür. Belə ki, xidməti vəzifələrini yerinə yetirmək üçün hərbiçilər daim evlərindən ayrı qalır və bir müddət sonra yenidən evlərinə, ailələrinin yanına qayıtmalı olurlar. Bu iş rejimi tsiklik olaraq daim davam edir. Təyin səbəbi ilə onlar yaşayış yerlərini bir-neçə ildən bir dəyişməli olurlar. Bu isə ailənin həyat tərzinə təsirsiz ötüşmür.

45 hərbiçi ailəsində apardığımız anket-sorğuya əsasən, hərbiçi ailələrində yaşanan ən çətin psixoloji dönəm məhz yeni yaşayış bölgəsinə olan təyinlərlə bağlıdır. Belə ki, bu zaman ailə yeni yaşayış bölgəsinə uyğunlaşmaqda bir müddət çətinlik çəkir. Yeni yaşayış yeri yeni qonşular, yeni sosial mühit deməkdir. Buna uyğunlaşmaq isə əlavə psixoloji gərginliyə səbəb olur. Bu psixoloji diskomfortdan ən çox nəsibini alan isə hərbiçi övladlarıdır. Hər dəfə yeni yaşayış yerinə köçdükdə onlar təhsil aldıqları məktəblərini də dəyişməli olurlar. Alışdıqları, müəllimlərinə öyrəşdikləri, şagirdləri ilə dostluq münasibəti qurduqları doğma məktəbdən ayrılmaq onlar üçün daha ağır olur. Eyni zamanda yeni məktəbə, oradakı pedaqoji və psixoloji mühitə uyğunlaşmaq müəyyən zaman tələb edir və bir sıra hallarda çox çətin keçir. Sorğuda iştirak edən hərbiçi ailələrinin hamısının bildirdiyinə görə uşaqlarının yeni məktəbə öyrəşmələri, bu zaman yaranan psixoloji gərginliklər onlar üçün ən həssas məsələ sayılır.

Hərbiçi həm də döyüşçü deməkdir. Heç bir döyüş, müharibə isə qansız, itkisiz olmur. Bunu Azərbaycanın tarixinə qızıl hərflərlə yazılan 44 günlük Vətən Müharibəsində bir millət olaraq, hamılıqla yaşadıq. Sorğuda iştirak edən bir qisim hərbiçi ailəsində - "Sizi daha çox nə narahat edir, psixoloji gərginlikdə saxlayır" sualına belə cavab aldıq. Onlar hər dəfə işə gedən hərbiçi atalarına, həyat yoldaşlarına görə narahat olurlar. Xüsusən də hərbiçi ailə başçısı təmas xəttində xidmət çəkirsə, iş növbəsindən evə gec gələndə, bu zaman ona telefon zəngi çatmayanda ailə üzvləri gərgin stress yaşayırlar. Belə hallarda adətən ailənin xanımı çalışır ki, öz narahatlığını içində boğaraq uşaqları sakitləşdirsin. Bu isə həyat yoldaşı qadının əlavə psixoloji gərginliklər yaşamasına səbəb olur. Sorğuda iştirak edən hərbiçi-respondentlərin fikrinə görə, onlar üçün ən çətin dövr obyektiv səbəbdən birlikdə yaşaya bilmədikləri zamandır. Belə ki, bəzən yeni təyinat yerinə ailə bir sıra səbəbdən gedə bilmir. Məsələn, uşaqların təhsilini oxuduqları məktəbdə davam etdirmək istəyindən, yeni təyin yerinin imkanlarının ailə üçün uyğun olmamasından və s. Respondentlərin 12 nəfərinin bildirdiyinə görə, bu kimi hallarda ən gərgin psixoloji yük hərbiçi ailə başçısının üzərinə düşür. Belə ki, o, tez-tez ailəsi üçün darıxır, ailəni əhatə edə biləcək məişət problemlərinin fikrini çəkir, ailəsinə kömək edə bilmədiyi üçün bəzən güclü stress də yaşayır.

Digər tərəfdən isə müəyyən müddətdən sonra evə qayıdan hərbiçilər burada ilk bir-neçə günü fərqli adaptasiya çətinlikləri ilə qarşılaş-

malı olurlar. Onlar hərbi hissədə keçirdikləri çətin, gərgin, eyni zamanda məsuliyyətli və nizam-intizamlı işdən sonra mülki həyata alışa bilmirlər. Bütün bunlar isə hərbiçinin psixoloji durumuna təsir edir, onların psixomodelində iz qoyur. Məsuliyyətli iş rejimindən ailəsinə qayıdan hərbiçi bir müddət evə adaptasiya ola bilmir, həmçinin evdə keçirdiyi vaxtın azlığından ailənin məişət qayğılarına tam yardımçı da ola bilmir. Bəzi hərbiçilər isə evə gəldikdən sonra yorğun olsa da bir sıra məişət qayğılarını, problemlərini ailədaxili vəzifə borcu həll etməyə çalışır.

Hərbiçinin həyat yoldaşının ailə problemlərini müstəqil şəkildə həll etməsi cəhdləri isə bəzən müsbət qarşılanmır, təqdir edilmir. Bu isə öz növbəsində ailədəki psixoloji mühitə heç də müsbət təsir göstərmir. Hərbiçilərin bildirdiyinə görə məhz bu səbəbdən onlar evə qayıtdıqdan sonra ərlə arvad arasında bəzən cüzi də olsa soyuq münasibət yaranır. Lakin, bu kimi hallar istisna təşkil edir və əsasən gənc hərbiçilərin ailələrində təsadüf edilir. Zamanla ailə bağları möhkəmləndikcə bu problem də aradan qalxır. " *Obrazlı desək, ailə həyatı həmişə günəşli hava demək deyil. Hərdən səmada buludlar da görsənir. Ailə həyatının günəş çıxması da var, qürubu da var. Gecəsi var, gündüzü var. Təbiətdə yaz, yay, payız, qış olduğu kimi, ailənin də yazı, yayı, payızı, qışı olur. Hər bir ailədə təbiətdə olduğu kimi yağışlı, ildırımlı, tufanlı günlər olur" (2, s. 132)*

Sorğuda iştirak edən 45 hərbiçidən 40 nəfəri aldıqları maaşın ailə təminatında yetərli olduğunu bildirdilər. Onlar ailələrinin maddi durumunu aldıqları yüksək məvacibə görə yaxşı təmin edə bilirlər. Adətən hərbiçi ailələrində maddi durumun aşağı olması səbəbi ilə gərginlik, ərlə arvad arasında anlaşılmazlıq, konfliktlərə təsadüf edilmir. Təbii ki, əgər ailə kifayət qədər önəmli olan büdcələrini düzgün istiqamətdə xərcləyə bilirsə. Sorğu keçirdiyimiz hərbiçilərin hamısı bu məqamı xüsusi olaraq qeyd ediblər ki, çəkdikləri əziyyət qarşılığında ailələrini maddi cəhətdən təmin edə bilmələri onlarda özünəgüvən hissini artırır, peşələri ilə bağlı yaşadıqları məhrumiyyətlərin kifayət qədər kompensasiya olunduğuna inam yaradır.

Hərbiçilərin bildirdiklərinə görə, onların ailələrində müsbət psixoloji mühitin, qarşılıqlı anlaşmanın qorunub saxlanılmasında həyat yoldaşlarının rolu daha çoxdur. Belə ki, qadınlar üçün çətin psixoloji və fiziki dönəm sayılan hamiləlik dövründə xanımlarının yanında daim ola bilməmələri, onlara lazımi mənəvi və psixoloji dəstəyi göstərməmələri bəzən qadınlar tərəfindən tənə, qınaq, narazılıqla qarşılanır. Bu isə, iş növbəsindən evinə yenicə dönmüş hərbiçi ilə həyat yoldaşı arasında gərginliyin yaranmasına səbəb olur.

Ata obrazını evdə hərbiçi olmadıqda öz üzərinə götürmək, təbii ki, psixoloji aspektdən identiklik olma səbəbindən çətinliklər yaradır. Bütün bu psixoloji gərginliyi dəf etmək üçün isə qadından ilk öncə dözümlülük tələb olunur. Öz araşdırmalarında bu mövzuya geniş yer verən prof. Ə.Ə. Əlizadə bu məsələ ilə bağlı demişdir: "*Qadın dözümlülüyü isə eldə-obada həmişə diqqət cəlb edib. Maraqlı psixoloji məziyyət kimi hələ qədim zamanlarda məlum idi. Onun psixoloji əlifbası vaxtilə Azərbaycan etnopsixologiyasında yazılıb*" (3, s. 366).

Hərbiçilərin fikirlərinə əsaslanaraq deyə bilərik ki, yuxarıda qeyd olunan ailədaxili münasibətlərdəki bu gərginlik zamanla aradan qalxır. Bu çətinliklər müvəqqəti xarakter daşıyır. Zamanla hərbiçi ailəsində ərlə arvad, valideyn və uşaqlar arasında qarşılıqlı anlaşma, mehribanlıq və səmimiyyət hökm sürməyə başlayır. Hərbiçilərn fikrincə, onlar qədər ailələri üçün darıxan digər peşə sahiblərinə çox az rast gəlinir. Onlar evlərinə qayıtdıqdan sonra çalışırlar ki, ailədə heç kimin xətrinə dəyməsinlər. Uzun müddət həsrətində olduqları həyat yoldaşının, uşaqların nəvazişini çəkir, ailəsi ilə daha çox gözəl anlar keçirməyə üstünlük verirlər. Eyni münasibət ailə üzvləri tərəfindən ataya qarşı yönəlir. Həyat yoldaşı, övladlar gərgin işdən sonra evə dönən, yorğun ataya qarşı diqqətli olur, onun yanından ayrılmamağa çalışırlar. Əlbəttə, bütün bunlar ailə bağlarını daha da möhkəmləndirir, ailədaxili sağlam psixoloji mühitin bərqərar olmasına öz təsirini göstərir.

Hərbiçilərin ailədaxili münasibətlərinin formalaşmasında övladların rolu çox diqqət çəkicidir. Bu baxımdan suallardan biri də hərbiçi ailəsində böyüyən övladların mənəvi-psixoloji xüsusiyyətləri ilə bağlı oldu. Hərbiçilərin əksəriyyəti, yəni 39-u bildirdi ki, bu peşə sahiblərinin övladları yeniyetməlik yaşlarından çox nizam-intizamlı, diqqətcil, qayğıkeş olurlar. Onlar

ataları evdə olmadığı müddətdə ailənin bir sıra məişət qayğılarını öz üzərlərinə götürürlər. Sözün əsil mənasında onları təkbaşına böyüdən analarına qarşı sevgi dolu olur, analarının sözündən çıxmamağa, onu incitməməyə çalışırlar. Eyni zamanda, ataları evə döndüyü zaman onu hansısa xoş bir əməlləri, məsələn, dərslərindən aldıqları yüksək qiymətlə sevindirməyə çalışırlar. Hərbiçilərin bildirdiyinə görə, onların övladları mənəvi-psixoloji cəhətdən tez formalaşır, müstəqil olur, ailəcanlılıqları ilə digər həmyaşıdlarından fərqlənirlər. Lakin, 28 hərbiçi bildirdi ki, yeniyetməliyin böhran dönəmində, xüsusən oğlan övladları ilə münasibətdə müəyyən psixoloji gərginliklər, narahatlıqlar yaşanır. Bu gərginliklər özünü ana-oğul, nənə, baba-nəvə münasibətlərində özünü göstərir.

Bir qisim ailə üzvləri digər peşə sahiblərindən ümumiyyətlə ailələrin istirahət rejimindən danışarkən bəzi faktları da qeyd etdilər ki, uzaq ölkələrə səyahətin mümkünsüzlüyü onlarda müəyyən qəzəb duyğusu yaratsa da buna görə ailə başçısına etirazlarını bildirmirlər. Ölkəsindən kənara çıxmayan hərbiçinin öz ailəsini uzaq səfərlərə apara bilməməsinin səbəbi onun xidməti dövründə peşə qayda qanunlarına əməl edərək ölkəni tərk etmək icazəsinin olmamasıdır. Xidməti yeri əgər ölkə daxilindədirsə, onun öz qarnizonundan kənara çıxmamaq şərtilə ölkə daxilində ailəliklə səyahətə çıxmaq imkanı var.

Dövlətimiz hər zaman hərbiçilərin iş şəraitinin, onların ailə-məişət şəraitinin daha da yaxşılaşdırılmasına xüsusi diqqət yetirir. Bu istiqamətdə mütəmadi islahatlar aparılır, xüsusi tədbirlər planı həyata keçirilir. Hərbiçilər yeni, gözəl, rahat evlərlə təmin olunur və övladlarının təhsili üçün mütəşəkkil işlər görülür. Bəzi çətin situasiylarda qarşılıqlı anlaşmanın sayəsində hərbiçi ailəsinin üzvləri çox böyük sədləri aşaraq bir- birlərinə dəstək olurlar. Belə olduqda isə hərbiçi öz ailəsindən narahat qalmır, peşə borcunu psixoloji gərginlik yaşamadan həyata keçirir. Hərbiçi ailəsində böyüyən övladların təlim tərbiyəsi təbii ki digər ailələrdəki övlad tərbiyəsindən fərqlənir. Axı hərbiçi evində əsgər ruhlu bir vətəndaş yetişir. O da qeyd edilməlidir ki, hərbiçilər güclü nizam-intizama, verilən əmrlərin dərhal və qeyri-şərtsiz yerinə yetirilməsinə öyrəşmiş insanlardır. Bu hal onların psixoloji durumuna da sirayət edir. Bəzən hərbiçilər bu peşə xarakterlərini də ailədə tətbiq edirlər. Onların özlərinin dediyinə görə bu, onlarda qeyri-iradi baş verir. Bəzən ən kiçik ailə-məişət nizamsızlığı onlarda yersiz əsəb yaranmasına səbəb olur. Bu da öz növbəsində ailədə lüzumsuz yerə konfliktli situasiyaya gətirib çıxardır. Hərbi sistemdə bir çox intizam qaydalarına həm özü əməl edən həm də tabeliyində olan hərbiçilərə riayət etdirən hərbi rütbə sahibi ailəsində də o ruhu qoruma prinsipləri ilə yaşayır. Sorğuda iştirak edən respondentlərdən 20 nəfəri bu xarakterini kiçik konfliktli situasiyalara səbəb olan əsas səbəb kimi qeyd ediblər.

Azərbaycan psixologiya elmində hərbiçilərin, zabitlərin döyüş hazırlığı, onların sosial-psixoloji məsələlərini psixologiya elmləri doktoru E. Şəfiyeva öz elmi işlərində təhlilə cəlb etmişdir. Bunlara "Zabit hazırlığının sosial-psixoloji məsələləri", "Hərbi-psixoloji xidmətin rolu", "Zabit şəxsiyyətinin psixoloji xüsusiyyətləri", "Döyüş ustalığının formalaşmasının psixoloji əsasları" və s. məqalə və monoqrafiyaları misal göstərmək olar. Bundan başqa, N.A. Əliyev, S.S. Gözəlovun "Hərbi qulluqçuların şəxsiyyətinin psixologiyası və hərbi intizamın möhkəmləndirilməsi məsələləri", "Hərbi qulluqçuların döyüş fəaliyyətinin və xidmətinin psixoloji təhlili" və s. işlərini də misal göstərə bilərik. Lakin, Azərbaycanın yerləşdiyi geosiyasi mövqeyi, Ermənistan kimi mənfur və işğalçı bir dövlətlə qonşu olmağımız bizi ordumuzun daha da güclü olmasını hər zaman prioritet mövzu olaraq diqqətdə saxlamağımızda labüd edir. O da qeyd edilməlidir ki, bu mövzu yalnız peşəyönlü problem deyil. Hərbiçi peşəsi ilə bağlı elmi yanaşmaların işlənib hazırlanması həm də milli-şüur, milli adət-ənənələrin qorunub saxlanılması, milli ideologiya olaraq önəm daşıyır:" *Azərbaycan xalqı özünün ikinci milli oyanma dövründə (1988-ci ildən sonra) yenidən öz soy kökünə, milli dirçəlişinə qayıtdı. Bu isə psixoloqları düşündürməyə bilməzdi. Bu dövr ərzində Azərbaycan psixoloqları da milli xüsusiyyətlər, milli şüur, milli adət və ənənələrin mənəvi tərbiyəyə təsiri məsələsinə yenidən geniş diqqət yetirmişlər" (1, s. 46).*

Ordu anlayışı maddi-texniki bazası, hərbiçilərin peşəkarlığı, mənəvi, psixoloji hazırlıqlı olmaları ilə bir bütövü özündə ehtiva edir. Apardığımız bu qısa təhlil əsasında deyə bilərik ki, -

hərbiçilərimizə xas olan keyfiyyətlərin qaynaqları, xalqımızın əsrlər boyu özündə formalaşdırdığı müsbət xüsusiyyətlərdir. Xalqımız bu müqəddəs və şərəfli peşə sahiblərinə heç zaman böyük sayğı və sevgisini əsirgəməmişdir. Ulu öndər Heydər Əliyev bu xüsusda demişdir: "Bütün peşələr şərəflidir. Lakin peşələrin ən şərəflisi Vətənə müdafiə etməkdir!"

**Problemin aktuallığı.** Praktik eksperimentlərlə hərbiçi ailəsində müəyyən edilən psixoloji xüsusiyyətləri ümumiləşdirmək, bu xüsusiyyətlərin səciyyəvi formalarını göstərmək, müasir psixologiyanın elmi-nəzəri tələbləri səviyyəsində onların təhlilini verməkdən ibarətdir.

**Problemin elmi yeniliyi.** Hərbiçi ailəsinin özünəməxsus psixoloji xüsusiyyətləri bu ağır və şərəfli peşə sahiblərinin gündəlik həyat tərzi, bütün ailə üzvlərinin psixoloji durumu təhlil edilərək müəyyən edilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədən hərbiçilər, psixoloqlar, eləcə də ali məktəb tələbələri, hərbi məktəb və akademiyanın müdavimləri istifadə edə bilər.

**Ədəbiyyat:**

Əliyev R.İ. Şagirdin şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması. -Bakı: Maarif, -1995.

1. Əliyev R.İ. Mən. Atam-anam. Sevgilim və övladlarım. -Bakı: ADPU, -2019.
2. Əlizadə, Ə.Ə. Qadın psixologiyası. / Ə.Ə. Əlizadə. -Bakı: Təhsil, -2015.
3. Mehdiyev, E. Hərbi psixiatriyanın seçilmiş sualları. / E. Mehdiyev. -Bakı, -2018.

**E-mail**: gulermemmedova@list.

**Rəyçilər:** *psixol.ü.elm.dok., prof.* **R.İ. Əliyev,**
*psixol.ü.fəls.dok., dos.* **M. İsmayılova**

**Redaksiyaya daxil olub:** 09.06.2021